**MAHMUD ALLAHMANLI**

# GÜNLƏR, AYLAR VƏ İLLƏR

**BAKI – 2021**

Tərtib edəni: ***N.M.Allahmanlı***

Elmi redaktoru: ***P.Ş.Əfəndiyev***
əməkdar elm xadimi,
filologiya elmləri
doktoru, professor

***Mahmud Allahmanlı. "Günlər, aylar və illər" (biblioqrafik və avtobioqrafik). Bakı, Avropa, 2021, 128 səh.***

***Kitabda folklorşünas alim, filologiya üzrə elmlər doktoru, professor Mahmud Allahmanlının elmi-pedaqoji fəaliyyətinin göstəriciləri əksini tapmışdır. Müxtəlif, illərdə çıxan qəzet, jurnal, məcmuə, toplulardakı məqalələri illər üzrə sistemləşdirilmişdir. Monoqrafiyaları, elmi-pedaqoji yönümlü metodik vəsaitləri, dərs vəsaitləri və onlar haqqında yazılan məqalələr və s. yer alır.***

**© Mahmud Allahmanlı**

## TƏRTİBÇİDƏN VƏ YAXUD DA ATAM HAQQINDA BİR NEÇƏ SÖZ

Doğrusu, çoxdan idi ki, atamın kitab, məqalə və toplularını bir yerə gətirmək haqqında düşünürdüm. Özü də söhbətlərində yazdıqlarını, gördüyü işlərin hamısını kitablaşdırmağı deyirdi. Bir neçə dəfə demişdi ki, məqalə və kitablarımın hamısı ayrı-ayrı qovluqlarda çap və əlyazma şəklində qorunur. Bütün bu söhbətlər mənim düşüncəmdə son olaraq həmin işləri görməyə əsas oldu.

Bəzən qardaşımla da atamın kitab və məqalələrini sistemləşdirmək haqqında söhbətlərim olurdu. Beləcə içimdə olan istəyi reallaşdırmaq üçün müxtəlif vaxtlarda qəzet və jurnal qovluqlarını səbr və təmkinlə, səliqə ilə izləməyə başladım. Düzdür, çox ağır idi və xeyli zəhmət tələb edirdi. Buna baxmayaraq, yavaş-yavaş çalışıb yerinə yetirdim. İllər üzrə sistemləşdirdim, yazdığı məqalələri, haqqında yazılanları bir araya gətirdim. Kitablarının böyük bir hissəsi əlimin altında idi. Onları sıralamaq, illər üzrə düzmək elə də zəhmət tələb etmirdi. Mühüm bir hissəsini oxumuşdum və müəyyən qənaətlərim də vardı.

Bilirdim ki, atamın altmış yaşı yaxınlaşır və

ona xeyli əvvəl başladığım işi hədiyyə olaraq verməyi düşünürdüm. Bu cür kitabların hazırlanması ilə bağlı elə də təcrübəm yox idi. Düzdü, müəyyən toplamaların, tərtiblərin, məqalələrin sistemləşdirilməsində atamla birgə işlərimiz olmuşdu.

Bu münvalla biblioqrafik göstəricilərlə bağlı evimizdə olan kitablara diqqət yetirdim. Onların hazırlanması, sistemləşdirilməsi qaydalarını mənimsədim. Mükəmməl təsəvvür yarandıqdan sonra qəzet, jurnal, məcmuələrdəki yazılarını bir araya gətirdim. Düşünürdüm ki, bunların hamısını edib yekunlaşdırdıqdan sonra atama təqdim edərəm. Beləcə işlərimi yekunlaşdırdım. Atama təqdim etdim. Onun özündə də məqalələrinin və gördüyü işlərin müəyyən siyahısı vardı. Hər ikisini müqayisə etdik. Müəyyən yazılar kənarda qalmışdı və onları da əlavə edib sistemləşdirdik. Belə qərara gəldim ki, bunlar da tam deyil. Diqqətdən kənarda qalan, əlimizdə olmayan məqalələr də vardı. Çünki illərə diqqət yetirəndə bu aydınlıqla görünür. Qəbələdə işlədiyi vaxtlarda çap olunan məqalələri, universitetdə oxuduğu illərdəki yazıları, eləcə də Qazax rayon qəzetinin səhifələrindəki məqalələri yox dərəcəsində idi. Özü də bunları etiraf etdi və xeyli iş görülməli

olduğunu söylədi. Bütün bunlara baxmayaraq, atamın toplaya bildiyim məqalələrini, işlərini sistemləşdirdim.

Son olaraq nəticəni atama söylədim. Buraya redaktoru olduğu kitabları, rəy verdiyi proqram, dərslik və dərs vəsaitlərini, monoqrafiyaları da əlavə etdik. Opponenti olduğu dissertasiyaları, elmi rəhbəri olduğu magistr dissertasiyalarını da ayrıca başlıq altında verdik.

Altmış illik ömürdə 25 kitab yazmaq, 7 toplu-tərtib, 8 proqram, 509 məqalə müəllifi olmaq böyük zəhmətin və vurğunluğun ifadəsidir. Burada bir insan ömrünün anları, dəqiqələri, günləri, illəri özünün ifadəsini tapır. Vətən, yurd, torpaq, insan sevgisi və onun sonsuzluğu görünür.

Toplayıb bir araya gətirdiyim məqalələrin siyahısı isə məndə ziyalı ömrü, altmış yaşa gəliş haqqında dolğun təsəvvür yaradır. Bunlar həm də bizim üçün örnək olacaq yolu aydınlaşdırır.

***Nurlana ALLAHMANLI***
***Azərbaycan Dövlət İqtisad Universiteti***

# KEÇMİŞ TƏLƏBƏM, İNDİKİ HƏMKARIM FOLKLORŞÜNAS MAHMUD ALLAHMANLI

Mahmud mənim ən sevimli tələbəmdir. Mən ömrüm boyu ondan qayğı, diqqət və kömək görmüşəm. Onu övladım qədər istəyirəm. Başqa tələbələrim kimi ona da Pedaqoji institutda dərs demişəm. Folkloru ona ilk dəfə mən tədris etmişəm. Onun tələbəlik illəri yadımda qalmayıb. Özü deyir ki, instituta qədəm basanda ilk dəfə Şifahi xalq ədəbiyyatından mühazirəmiz olub və onu Paşa müəllim, siz keçmisiniz. Hətta əlavə edir ki, birinci kursun yaz sesiyasında imtahanları verdikdən sonra Bakının kəndlərinə folklor toplmaq üçün getmişik. Çöl praktikasında da deyir ki, Paşa müəllim, siz rəhbərlik etmisiniz. Bunlar mənim yadımda elə də qalmayıbdır. Yüzlərlə tələbələrimin içindən, əlbəttə, indi onu xatırlaya bilmirəm. Ancaq bir sıra əhvalat və hadisələr Mahmudun özünün yadında qalıb. Elə Mahmudun özü ilə bərabər bəzi cəhətləri ötərgi xatırlaya bilirəm. Mahmud çox sakit, mədəni, diqqətli həm də savadlı gənc idi. İnstitutda seminar məşğələlərini də özüm aparmışam. Mahmuda folklora

olan sonsuz məhəbbəti də mən oyatmışam.

Mahmud Allahmanlı pedaqoji institutu qurtarıb. Ali təhsil nazirliyinin göndərişi ilə Qəbələ rayonuna işləməyə gedir. İki il orada çalışdı. Özü Qazax rayonunun Kəmərli kəndindəndir. İndi onu Qəbələ kəndlərinin adətləri, ənənələri, necə deyərlər, folklorçu kimi maraqlandırırdı. Qəbələdə işlədiyi iki ildə yadıma indi düşür, bir neçə dəfə mənim yanıma evə gəlib, öz yaşayışı, vəziyyəti haqqında xəbər verib. Hətta Qəbələdən mənə qozfındıq payı da gətirmişdi. Deməsən, Mahmud Allahmanlı o vaxtdan institutda aspiranturaya girmək üçün hazırlaşırmış. Qəbələdə iki il vaxtı qurtaran kimi Mahmud Bakıya, doğma instituta qayıdır, müəllimləri ilə görüşür, arzu və istəklərini bəyan edir. Özünün xahişi və arzusu ilə onu Azərbaycan ədəbiyyatı tarixi kafedrasına dissertant qəbul etdik. Onu da əlavə edim ki, Mahmud institutun tələbəsi olanda mən filologiya fakültəsinin dekanı idim. Hazırda isə Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifəsini aparırdım. Mahmud çox istiqanlı bir tələbə idi, az bir zamanda müəllimlərin rəğbətini qazanır, onların qayğısı ilə əhatə olunurdu. İndi mən həm kafedra müdiri, həm də elmi rəhbəri kimi ona daha çox

qayğı göstərməyə imkan tapmışdım. Mahmud namizədlik dissertasiyası üçün çox lazımlı və məsul bir mövzu götürmüşdü. Aşıq Valeh Azərbaycan aşıq poeziyasının görkəmli və klassik nümayəndələrindən biri idi. Hələ onun haqında Hüseyn əfəndi Qayıbov, sonra Firudin bəy Köçərli məlumat vermişdilər. Sovet dövründə hətta onun şeirləri də nəşr edilmişdi. Ancaq zəngin yaradıcılığı öz tədqiqatını gözləyirdi.

Mahmud çox səylə, inadla və həvəslə namizədlik dissertasiyasının tədqiqinə başladı. Çox az hallarda mövzu ilə bağlı mənə müraciət edirdi. Aşıq Valeh böyük sənətkardır, hətta XIX əsr rus mətbuatında da onun haqqında məlumat çap olunmuşdu. Aşıq Valehlə əlaqədar böyük və məşhur dastan yaranmışdı. Həm də dastanın təhlili çoxdan özünü gözləyirdi. Ancaq Valehin butası Zərnigar haqqında məlumatımız yox idi. Mahmud çox gərgin əmək sərf edərək fərdi ekspedisiya yolu ilə Zərnigarın şəxsiyyətini aydınlaşdırdı, hətta qəbrini də tapdı, qəbri üzərində olan yazını da oxudu. Bu, gənc alimin ilk tapıntısı idi. Mahmud dissertasiyasını hazırladı, uğurla müdafiə elədi. Mahmud Allahmanlının şəxsində Azərbaycan xalq sənətinin yeni bir tədqiqatçısı özünü

göstərdi. Buraya əlavə edirəm ki, türk dünyası 2017-ci ili Vaqif ili elan eləmişdi. Azərbaycandan buna yalnız Mahmud Allahmanlı yeni gözəl bir monoqrafiyası ilə gəldi. Məlumdur ki, Aşıq Valeh öz "Cahannamə"sində Vaqif haqqında yazırdı: "Təxəllüsü Vaqif, nəzmi dürəfşan". Mahmud Allahmanlı Valehin bu sözləri ilə monoqrafiyasını adlandırmışdı. Mahmud Allahmanlının namizədlik dissertasiyası "Aşıq Valehin sənət dünyası" adı ilə monoqrafiya şəklində çap olunmuşdur. Mahmudun ilk kitabı idi.

Doğma aşıq sənətimizlə bərabər M.Allahmanlı türk dünyasında bu sənətin doğuşu və inkişafı haqqında axtarışlar apardı. Ozan-aşıq sənəti türk xalqlarının qüruru, iftixarı və şərəfi idi. M.Allahmanlı böyük həvəslə, ehtirasla ümumtürk kontekstində aşıq, ozan, şaman, varsaq və başqa istilahlar fonunda aşıq sənətinin geniş miqyasda tədqiqinə başladı. Azərbaycandan kənara çıxdı, türk dünyasına ayaq açdı, beləliklə, bir-birinin ardınca monoqrafiyalar işıq üzü gördü.

Bütün bu işləri M.Allahmanlı mənim gözlərim önündə həyata keçirirdi. Gəlin bu illərdə M.Allahmanlının ərəyə-ərsəyə gətirdiyi kitabları xatırlayaq: "Şamanla ozan arasında" (1996),

“Ozan, aşiq və aşıq” (1997), “Türk dastan yaradıcılığı” (1998), “Din, təriqət və aşıq” (1999), “Şaman, ozan və aşıq” (2002) və s. Bunlar və daha bir neçə kitab bir neçə ilin müddətində dünyaya gəlib. İllərə diqqət yetirən oxucu görəcək ki, M.Allahmanlı necə məhsuldar, inadlı, dərin tədqiqatçıdır. Bunlar kitablardır. Bu kitablarla yanaşı, M.Allahmanlı 500-ə qədər məqalə də çap eləmişdir. Bütün bunları nəzərdən keçirəndən sonra istər-istəməz deyirsən ki, M.Allahmanlı tədqiqatçı alim və publisistdir.

Bir gün M.Allahmanlı doktorluq dissertasiyasını mənə təqdim elədi. “Aşıq yaradıcılığının inkişaf mərhələləri”. Mən dissertasiyanı diqqətlə oxudum, qeydlərimi dedim. Kafedranın üzvləri olan 6 (altı) professor da əsəri oxudular, geniş müzakirəsini keçirdik. Beləliklə, M.Allahmanlının doktorluq dissertasiyası ilk oxunuşda müdafiəyə məsləhət bilindi. Bu, gənc, zəhmətkeş, istedadlı alimin ilk uğuru idi. Aşıq poeziyası türk xalqlarının iftixarı qüruru və şərəfidir. Bu böyük bəşəri sənət qarşılıqlı əlaqələr fonunda inkişaf tapmışdır. Deməli bu əlaqə qarşılıqlı təmas əsasında da tədqiq olunub dünya mədəniyyəti xəzinəsinə daxil edilməlidir, hər bir xalq buna öz töhfəsini verməlidir.

Gənc ailm M.Allahmanlının doktorluq dissertasiyası ümumtürk aşıq-ozan sənətinə Azərbaycan xalqı adından verilən hədiyyədir.

M.Allahmanlı dissertasiyasını Ali Attestasiya Komissiyasına təhvil verdi. Bəlkə heç demək lazım deyil, bədxahlar, xainlər, paxıllar ona mane olmağa başladılar. Ona görə də dissertasiya bir müddət gecikdi. Sonra dissertasiyanı müdafiə etmək üçün Milli Elmlər Akademiyasının Folklor İnstitutuna göndərdilər. Orada müdafiə şurası vardı. Mən Paşa Əfəndiyev şuranın sədr müavini idim. Sədr, institutun direktoru Hüseyn İsmayılov ağır xəstələndi. İclasları mən aparmalı oldum. Mahmudun dissertasiyasını seminardan keçirdik, opponentləri təyin elədik. M.Allahmanlı çox uğurla dissertasiyasını müdafiə elədi. İclasın sədrliyini mən apardım. İnstitutda mən əlimdən gələn köğməyi göstərdim. Beləliklə, ürəyim rahat oldu. Çünki Mahmud müəllimin mənə elədiyi yaxşılıqların kiçik də olsa əvəzini çıxa bildim. İndi Mahmud elmlər doktoru və professordur. Respublikamızın ən görkəmli folklorşünaslarından biridir. Folklorşünaslıq elmimizin ən çətin və böyük problemlərini həll etməyə qadir bir alimdir.

Mahmud Allahmanlının başqa mçövzularda

da monoqrafiyaları var. Bir neçəsinin adını çəkim; "Ağlın və yaddaşın dedikləri" (2000), "Haqdan yanan ocaq" (2005), "Ədəbi düşüncələr" (2006), "Krımtatar ədəbiyyatı (problemlər, mülahizələr) (2007), "Aşıq Ömərin yaradıcılığı" (2008), "Dilə sevgi-yurda sevgi" (2011), "Folklorşünaslıq məsələləri" (2012), "Rasim Gənzəlinin bədii nəsri" (2012). Alimin son kitabı böyük və milli şairimiz Molla Pənah vaqifə həsr olunub: "Təxəllüsü Vaqif, nəzmi dürəfşan". Molla Pənah Vaqifə həsr elədiyi kitabına görə Mahmud Allahmanlıya türk dünyasının mükafatını vermişlər. Krımtatarların ədəbiyyatı ilə bağlı araşdırmalarına görə Mahmud Allahmanlı Ukrayna Respublikasında Bəkir Çobanzadə adına mükafata layiq görülmüşdür. Beynəlxalq simpozium və konfranslarda türk xalqlarının mənəvi mədəniyyətinin ayrı-ayrı problemləri ilə bağlı məruzələrlə çıxış edir.

Burada qeyd etməyi lazım sayıram ki, mən və Mahmud müəllim istəkli alimimiz Yaşaq Qarayevin məsləhəti ilə AMEA-nın Folklor İnstitutunda yarım ştat aparıcı elmi işçi kimi işləmişik. Qürurla deyirəm, hər ikimiz bu sevimli məbədi özümüzə doğma saymışıq. Yarım ştat yox, orada

bütöv ştatdan artıq işlər görmüşük. Mən yalnız iki cəhətlə kifayətlənmək istəyirəm. İnstitutda dissertasiya müzakirəsində Mahmud müəllimin və mənim rəyim əsas sayılırdı. Folklor İnstitutunda seminar fəaliyyət göstərirdi. Bu seminar ekspert rolunu oynayırdı. Dissertasiyaları müdafiəyə həmin seminar məsləhət bilirdi. Bir neçə il bu seminara Mahmud Allahmanlı rəhbərlik etmişdi.

Folklor İnstitutunda müdafiə şurası var idi. Mən o sovetin həmsədri idim. İnstitutun direktoru Hüseyn İsmayılov sovetin sədri idi. O, ağır xəstələndi. İclasları mən aparmalı oldum, sədrin vəzifəsini mən yerinə yetirirdim. Gün gəldi folklor institutunun rəhbərliyi bircə gündə məni də, Mahmud müəllimi də institutdan xaric elədi. Bir gün evdə divanın üstündə tək-tənha oturmuşdum. Gözlərim tavana zillənmişdi. Arzular, düşüncələr, xəyallar məni ağuşuna alıb aparırdı, hətta elmi-pedaqoji fəaliyyətimin bəzi anları da gözlərimin önündən keçirdi. Elə bu zaman qapı döyüldü. Gələn Mahmud idi. O, çox az, lap çox az hallarda yanıma gəlirdi. Sevindim, söhbətə başladıq, mənim tutqun eynim açıldı. Mahmudun əlində qəzet var idi. Dedi ki, Paşa müəllim istədiyin qəzeti

gətirmişəm. Yenə dedi ki, Paşa müəllim AMEA həqiqi və müxbir üzvlərin seçkisi üçün müsabiqə elan edilib. Akademiyamızın tarixində ilk dəfə folklorşünaslıq ixtisası üzrə bir yer ayrılıb. Paşa müəllim, respublikamızda sizdən böyük folklorşünas yoxdur, bütün Azərbaycan folklorşünaslarının müəllim və ağsaqqalısınız. Mən də kömək eləyim sənədlərinizi hazırlayıb müsabiqəyə təqdim edək. Dedim, Mahmud, əzizim, mən öz mahnılarımı oxuyub qurtarmışam. Bütün varlığım, istedadım, ürəyim və ləyaqətimlə bağrından qopduğum xalqıma xidmət eləmişəm. Doğma folklorşünaslıq elmimizə ləyaqətli töhfələr vermişəm. İndiyə qədər heç kimin eləmədiyi və eləyə də bilmədiyi işlər yerinə yetirmişəm. Mənim vaxtım artıq keçib, qurtarmışam. Xalqımızın yanında üzüm ağ, qəlbim də açıqdır. Mahmud, məndən sonra folklorşünaslıqda sən gəlirsən, sənin böyük gələcəyin var, hələ indidən sonra biz səndən çoxlu elmi-pedaqoji nailiyyətlər gözləyirik, əgər AMEA-nın müxbir üzvü seçilsən daha böyük işlər görərsən. Oraya sənədlərini hazırla və təqdim elə. Mahmud qəti etiraz elədi. Mən ona dedim ki, müsabiqədir, sən tək olmayacaqsan,

xahiş edirəm hazırda, sənədlərini müsabiqəyə ver. Nəhayət yola gətirə bildim. O, sənədlərini hazırlayıb müsabiqəyə verdi. O, müsabiqədən keçmədi, dedim Mahmud, fikir eləmə, gələn seçkidə iştirak edərsən, Allah qoysa keçərsən.

İndiyə qədər Mahmud Allahmanlının elmi fəaliyyətindən söz açdıq. Mahmud Allahmanlı eyni zamanda müəllimdir, pedaqoqdur, özü də çox yaxşı müəllimdir. O, belə bir əhvalat danışdı, mən də onu çox çətinliklə xatırlaya bildim. Mahmud deyir ki, Paşa müəllim siz biz tələbələri Bakının orta məktəblərindən birinə pedaqoji təcrübəyə aparmışdınız. Bizi toplayıb vəzifələrimizdən danışdınız və dediniz ki, birinci olaraq təcrübə dərsini kim demək istəyir, tələbələr dillənmədilər. Siz ikinci dəfə müraciət edəndə dedim ki, mən deyərəm. Sizin köməkliyinizlə dərsin planını hazırladıq. Mən dərsi dedim, dərs yaxşı alındı. Müzakirə zamanı mənə dediniz ki, Mahmud, sən gələcəkdə yaxşı müəllim olacaqsan. Mən Mahmudu həm də yaxşı müəllim kimi hazırlayırdım. Fikirləşirdim ki, xalq ədəbiyyatımızı yaxşı tədris edənlərdən biri olacaq. Azərbaycan ədəbiyyatı tarixi kafedrasını mənim əlimdən aldılar, kafedra

dağıldı, hələ də özünə gələ bilmir. Nədənsə M.Allahmanlıya Şifahi xalq ədəbiyyatından mühazirələr vermədilər. Mən və eləcə də Mahmud özü də indi də bunun səbəbini ayırd eləyə bilmirik. İndi Mahmud Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatından mühazirələr oxuyur. Əsas mühazirələri "XIII-XVIII əsrlər Azərbayca ədəbiyyatı tarixi"ndəndir. Böyük həvəs və məhəbbətlə o, ən ağır, zəngin, mürəkkəb dövr ədəbiyyatımızın mütəxəssisi kimi yetişmişdir. Mənə deyir ki, o dövrdə yaşayıb yaradan ən böyük şairlərimizin şeirlərini əzbərləyirəm. Mən də o dövr ədəbiyyatımıza aid olan bir sıra kitablarımı ona hədiyyə vermişəm.

Əlbəttə, Mahmud çox yaxşı bilir və yerinə də yetirir ki, ali məktəb müəllimi eyni zamanda alimdir. Mahmud kitabxanadan, arxivdən topladığı elmi materiallarla mühazirələrini bəzəyir. Nəticəsi budur ki, Mahmud Allahmanlının şəxsində gözəl, böyük alim və təcrübəli ali məktəb pedaqoqu görürük. Mən şəxsən onun şəxsində ən çox Azərbaycan folklorşünaslığının ən gözəl və məhsuldar tədqiqatçısını görürəm. Mahmud Allahmanlı Allahdan vergi almış alimdir. O, indi hələ çoxlu problemlərinin

həllini gözlədiyi Azərbaycan folklorşünaslığının görkəmli nümayəndəsi kimi yetişmişdi. Gəlin ona cansağlığı və yeni-yeni yaradıcılıq sevincləri diləyək.

***Paşa ƏFƏNDİYEV***
***filologiya elmləri doktoru, professor,***
***əməkdar elm xadimi***
***14 aprel 2018-ci il***

## ÖZÜM HAQQINDA SÖZ VƏ YAXUD DA ALTMIŞ İLLİK ÖMRÜN GÖRÜNTÜLƏRİ

Bu da altmış yaş! Bu da altmış illik ömür! Necə gəldim, hansı oddan, soyuqdan keçdim, deyə bilmərəm. Gözümü açanda gördüm ki, altmışın astanasındayam. Bütün olanlara, sıxıntılara baxmayaraq, bir onu bilirəm ki, Ulu Tanrı mənim qarşıma həmişə böyük-böyük adamlar çıxardı. İçi xeyirxahlıq, insanlıq hissi ilə dolu olanların içində yaşadım. Onların dediklərini yadımda saxlamağa çalışdım. Nə qədər buna nail oldum, bilmərəm, ancaq çalışdım. Bir onu deyə bilərəm ki, nail olduqlarımın bütün göstəricisi yazılarımda, müəllim kimi fəaliyyətimdə, insanlara olan münasibətimdə və tərtibi verilən bu kitabdakı kitab və məqalələr siyahısının yaratdığı təəssüratda aydınlaşır.

Zəhmətlə, halallıqla yaşayan bir ailədə dünyaya gəldim. Gözlərimi dünyaya açanda ciddi nizam, ölçü-biçi gördüm. Halallıq, xeyirxahlıq, insanlıq, qarşılıqlı inam və sevgi, qayğı, kimsəsizə əl tutmaq, haqqın yanında dayanmaq və dayana bilmək və s. kimi müqəddəs dəyərlərin təlqininə kökləndim. "Haqq nazilər, ancaq üzülməz" təsəvvürü ilə yol başladım. Həmişə də içimdə olan

böyük inam məni irəlilərə, bu dünyagörüş üzərində köklənməyə istiqamətləndirdi. Onu da deyim ki, həmin təsəvvür və düşüncədən bir an belə uzaq dayanmadım. Hətta haqsızlıqların baş alıb getdiyi məqamlarda od parçasına çevrildim. Ağlım, düşüncəm, mövqeyimlə onun yanında oldum. Mən belə bir ömür yaşadım. Əminəm ki, bundan sonra da belə olacaq. Çünki bu mənim təbiətimlə bağlı olandır.

Atam zəhmətkeş bir kişi idi. Ona Allahman oğlu Qara deyərdilər. Nəslimiz Allahmanlılar adı ilə Qazaxda tanınardı, indi də tanınır. Həyat onu (atamı) ömrü boyu sınağa çəkdi. Erməni-müsəlman davaları (iyirminci əsrin əvvəli və sonlarında), birinci və ikinci cahan savaşı, Qarabağ müharibəsi onun taleyindən keçdi. Çar Rusiyası, Cümhuriyyət, Sovetlər imperiyası taleyində ciddi və həm də yaddan çıxmaz izlər buraxdı. 37-ci il repperssiyasında şərlənərək Şəkərin qalasında yatdı. Biz ailəliklə "xalq düşməni ailəsi" kimi bir sıxıntı yaşadıq. Kolxoz quruculuğu dövründə ailəmizin nəyi vardısa (qolçomaq olaraq) müsadirə edilmişdi.

İkinci dünya müharibəsində atam bir neçə dəfə yaralanmış və sağalaraq təzədən cəbhəyə

getmişdi. Müharibədə əsir düşmüş, əsirlikdən qaçaraq bir müddət partizan dəstələrində olmuşdu. Sonradan yenə də əsir alınmışdı. Əsgər kimi 18 ölkəni silah əlində dolaşmışdı. Əsir olmaq, əsirlikdə yaşamaq sovet siyasi hakimiyyəti tərəfindən ona ögey münasibət yaratmışdı. Bunları mən və ailəmiz uşaqlıqda duyur, görür, ancaq anlaşdıra bilmirdik. Və biz də eyni əziyyəti çəkməli olurduq. Sovetlər imperiyasının dağılmasından sonra bunların bir qismini atam bəzən dilə gətirərdi. Hamısı olmasa da bir hissəni deyirdi.

Anam son dərəcədə sakit və rahat, ev-eçik işləri ilə məşğul olan bir qadın idi. Bizim dolanmamız, ehtiyaclarımızın ödənməsi üçün hər ikisi də əllərindən gələni edərdilər. Ailədə altı uşaq olmuşuq. Hamımıza da oxuyub-yazmağı anam öyrətmişdi. Əsas işimiz və evin tapşırığı bizim oxumağımız, elmlərə yiyələnməyimiz idi. Həmişə evimizdə başa salınırdı ki, hər şeyə elm və kamalla çatmaq olur. Çünki o, hər şeyin açarıdır. Düzdür, dolanmamız üçün hamımız evin bütün işlərində, əkin-biçində, bağ becərməkdə, qoyun-quzu otarmaqda və s. iştirak edirdik. Dərslərimiz, oxumağımız isə öz yerində idi.

Beləcə bir qayğılarla, zəhmətlə, ehtiyacla

dolu yol başladım. Atamın müdrikliyi, ağsaqqallığı, kişi olaraq ötkəmliyi, qeyri-adi nizam və intizamı, tələbkarlığı, anamın sadə və səmimiliyi mənim taleyimdə əvəzsiz rol oynadı. Onların hər ikisinin xarakter və insanlıq təsəvvüründə, hərəkət və davranışlarında, söhbətlərində formalaşdım. Həyat təbii bir axarda (burada gen yaddaşı da vardır) onları böyük etmişdi. Mən də onların və digər yaxınlarımın nizamı sayəsində yol başladım. Orta məktəb illəri, ali məktəb illəri, şagird və tələbəlik illərinin qayğıları beləcə illəri-illərə caladı.

Həyatımın mühüm və həm də yadda qalan bir hissəsi Qəbələ rayonu ilə bağlıdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu dil-ədəbiyyat fakültəsini bitirib təyinatla Qəbələ (o zamanlar Qutqaşen adlanırdı) rayonunun Abrıq kəndinə göndərildim. Ucqar bir dağ kəndində müəllim kimi fəaliyyətə başladım. Az müddətdə kəndin sevimlisinə çevrildim. O balaca kənddə elə bir tədbir olmazdı ki, mən orada olmayım və həmişə də başda oturdulardım. Bir növ əzizlənərdim. Müəllim kollektivimiz hər birisi bacarığı və qabiliyyəti ilə öyünəcək yoldaşlar idi. Az vaxtda kəndə uyğunlaşdım və onların bir üzvi oldum.

Kənd həyatı, onların iş-gücü məni özünə çəkdi. Uşaqdan böyüyə mən onların, onlar da mənim sevimlimə çevrildi. Bu gün də belədir.

Qəbələdə müəllim kimi çalışarkən fəaliyyətimin mühüm bir hissəsi rayon qəzetinə məqalələr yazmaqla bağlı idi. Müxtəlif mövzularda qəzet səhifələrində çıxışlar edərdim. Daha çox isə ədəbiyyatla bağlı idi. Rayon tədbirlərində, rayonda təşkil edilən yaradıcılıq tədbirlərində fəallıq göstərərdim. Demək olar bütünlükdə rayon yaradıcı mühiti mənə böyük hörmətlə yanaşmaqda idi.

Günlərin birində  Bakıya gəlmişdim, Azərbaycan Yazıçılar İttifaqında tədbir keçirilirdi. Orada iştirak etdim və müzakirələrdə, məsələ ilə bağlı söz alıb tribunadan münasibət bildirdim. Bu, 1984-cü ilin mart-aprel ayları idi. Tədbir qurtarandan sonra orada iştirak edən bir nəfər mənə yaxınlaşıb söhbət etdi və elmə gəlməyimi məsləhət gördü. Məni Azərbaycan dövlət Pedaqoji Universitetinin o zamankı rektoru Afat Qurbanovun yanına gətirdi. Üçümüz birlikdə söhbət etdik. Mənim elm, alimlik yolum belə başladı.

İndi o illərdən illər, onilliklər keçir. Hamısı bir tarix, tale yazısı kimi gözlərim qarşısında canlanır. Çox tez namizədlik və doktorluq dissertasiyamı

yazdım. Görkəmli folklorşünasımız professor Paşa Əfəndiyevin rəhbərliyi altında işlədim. Laborantlıqdan elmlər doktorluğuna qədər keşməkeşli bir yol gəldim. Ətrafımda bir-birindən görkəmli elm, ədəbiyyat adamları vardı. XVIII əsr Qarabağ ədəbi mühitini və onun azman sənətkarlarından olan Abdalgülablı Valehin yaradıcılığını araşdırdım. Bu gün də yazılarımın mühüm bir hissəsi həmin problemlərin təhlilinə həsr olunur. Aşıq yaradıcılığı, xalq poeziyası, klassik ədəbiyyat müstəvisində apardığım təhlillər məni çox dərinliklərə gətirib çıxardı. Öyrəndiklərimi həmişə yazıya almaq məqsədində oldum.

Daha sonra aşıq yaradıcılığının mənşə və təşəkkülü problemi ətrafında təhlillər apardım. Yazıdan-yazıya, kitabdan-kitaba xeyli dərinliklərə gedib çıxdım və problemi təkcə Azərbaycan və türk xalqları səviyyəsində deyil, bəşər sivilizasiyası anlamında öyrənib araşdırmaq yolunu tutdum. Şamanlıq, ozanlıq, aşıq sənəti, dünya sinkretik sənəti (aed, rapsod, minnezinger, trubadur, vaqant və s.) müstəvisində izlədim. Dürlü-dürlü kitablar, əsrarəngiz yazılar yazdım. İbtidai sənət, insan cəmiyyətinin ilkin mərhələsinin ümumi aspektləri, mif və mifdən sonrakı mərhələ,

epos sənəti, şamandan ozana, ozandan aşığa gəlişin tarixi-mədəni axarı ilə bağlı təhlillər məni özünə çəkdi. Yazdım və təsəvvürlərimi bölüşdüm.

Xalq şeiri ənənəsinin ümumi mənzərəsi və klassik poeziyanın orta çağ ədəbiyyatındakı axarı və onların müqayisəli dinamik mənzərəsi və s. düşüncələrimi özünə cəlb etdi. Nəğmədən, bayatıdan, atalar sözü və məsəllərdən, əsatir, nağıl, rəvayət, dastan, inam və etiqad örnəklərindən gələnləri etnokulturoloji aspektdə öyrənmək yolunu tutdum. Xalqımızın zəngin mənəvi mədəniyyəti məni özünə çəkdikcə çəkdi. Məqalələrdən məqaləyə, kitabdan kitablara təbii bir prosesdə boyartımı gördüm. Xalqımızın bəşər sivilizasi- yasında nə qədər zənginliklə təmsil olunduğunun bir daha şahidi oldum.

Yazılarımın mühüm bir hissəsi çağdaş ədəbi proseslərlə bağlıdı və onların hamısını tarixilik müstəvisində, klassiklərdən gələn dinamikanın hansı axarla davamının aydınlığına köklənibdir. Oxudum, öyrəndim və yazdım. Ədəbi meyil və istiqamətlərin ana xəttini bir bütöv olaraq özüm üçün ilk əvvəl aydınlaşdırdım. Düzdür, burada müəyyən sapmalar,  tendensiyalarla da qarşılaşdım. Bunu təbii olan kimi qəbul etdim və ya-

zılarımda  da başa düşdüyüm qədərində verdim.

Kitablaşdırmağa çalışdığım məqalələr yazdıqlarımın hamısı deyil. Həyatımın tələbəlik illərində, eləcə də Qəbələdə müəllimlik illərində yazdığım yazılarımın çox az bir hissəsi burada özünə yer alır. Hətta sonrakı dövrlərdə yazdığım məqalələrimin az bir qismi də bu siyahıdan kənardadır. Daha doğrusu, nədənsə qovluqlarda rast gəlmədim. Ancaq əksəriyyət buradadır və bir istəyimi də bununla reallaşdırmış kimiyəm.

Azərbaycanın müstəqilliyi mənim üçün hər şeydən əziz olub və sovetlər dönəminin bütün kəshakəs zamanlarında bu düşüncədə olmuşam. Əmin olmuşam ki, günlərin birində bu imperiya dağılacaq və Azərbaycan öz müstəqilliyini yaşayacaq. İmperiyanın dağıldığı ərəfədə və hərəkatın başladığı dönəmdə fəaliyyətimin mühüm bir hissəsi bura köklənmişdir. Çünki böyük əksəriyyətdən fərqli olaraq bu hərəkata hazır gəlmişdim. Hərəkatın gedişi və baş verənlərin ictimai-siyasi məzmunu ilə müxtəlif səpkili yazılar yazmışam. Xarici və daxili siyasəti bu və ya digər dərəcədə təhlilə gətirmişəm. Siyahıda bunlar bir hissədir. Hamısı əhatə olunmayıbdır. Nədənsə bu istiqamətli yazıların da ayrıca qorunub saxlanmasına

elə də həssaslıq göstərməmişəm.

Altmış illik ömrümün mühüm bir hissəsi müəllimliklə bağlı olubdur. Mən müəllim ömrü yaşamışam. Daim öyrənmək, araşdırmaq duyğusuna köklənmişəm. Bildiklərimi, öyrəndiklərimi isə şagird və tələbələrimə öyrətmək məqsədində olmuşam. Auditoriyalarda uzun illər ədəbiyyatın müxtəlif dövrlərindən mühazirələr demişəm və bu gün də deyirəm. Mənə böyük-böyük ziyalılar, xalq müəllimləri dərs deyiblər. Onlar bir növ mənə layla çalıblar, elmin sirləri ilə yanaşı, ədəb-ərkanı, necə olmağı, ilahi dəyərləri mənimsədiblər. İndi onların mənə öyrətdiklərini böyük auditoriyalarda azərbaycanlı balalarına çatdırıram və bütün hərəkət, davranışımla nümunə olmaşa çalışıram. Kitabdakı məqalələrin adları, onların hər bir sətri məhz bu ruha köklənmişdir.

Həyatımın böyük bir dövrü Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. Ora mənim üçün müqəddəs məbəddir. Ocaqdır. Bu məbəddə kimlər təhsil almayıbdır. Azərbaycan balaları (eləcə də mən) bütün dünyaya buradan baxmışlar. Onun isti qucağında boy atmışam. Hara getsəm də bir ayağım orada olubdur. Bütün quşlar, heyvanlar, canlılar hər axşam öz yuvasına

can atır və mən də himəşə bura can atmışam. Azərbaycan Dövlət Pedaqoji Universitetində işləməklə yanaşı, müxtəli vaxtlarda (əlavə olaraq) AMEA-nın Folklor İnstitutunda, Bakı Müəllimlərin Təkmilləşdirilməsi İnstitutunda, Bakı Slavyan Universitetində, Dnepropetrovsk Universitetinin Bakı filialında, Avrasiya Universitetində, Azərbaycan Müəllimlər İnstitutunu Quba filialında, Azərbaycan Müəllimlər İnstitutunun Cəlilabad filialında işləmiş, mühazirələr oxumuşam. Tələbə auditoriyası mənim üçün həmişə uca olub və auditoriya ilə yaşayanlardan olmuşam. Daha doğrusu, özümü auditoriyada tapmışam.

XIII əsr Azərbaycan ədəbiyyatının görkəmli siması Zülfüqar Şirvani vurğulayırdı ki, "zər əsiri deyil mənim hünərim". Mən də, ailəm də belə olub və belədir. Çünki oğlum və qızımda da bu düşüncə bir meyar olaraq özünü göstərir. Sadə, rahat, zəhmətlə dolu bir ömür yaşamaq həyat kredom olubdur. Milli-mənəvi dəyərləri uca tutmaq, rahat həyat yaşamaq, haqqın-ədalətin yanında olmaq mənim üçün hər şeydən üstün olubdur. Bütün olanları yaxşılığa doğru təhlilə gətirməyə çalışmışam. Maddi zənginlik deyil, mənəvi zənginlik yükünə və istəyinə köklənmişəm. Boğaz-

dan yuxarı söz demək, kiməsə yarınmaq mənim işim olmayıbdır. Belələrinin aqibətini və rəzil həyatını da çox görmüşəm. Bütün insanıların gözünün içinə düz baxmağı bacarmışam. Bu isə hər kəsə nəsib olmur. İllah da dünyanın belə dolaşıq, əyriliklərlə dolu zamanlarında. Ancaq yaşamışam. Beləcə yaşayıb altmış yaşın astanasına gəlib çatmışam. Haşiyələrə, ayrı-ayrı epizodik məqamlara diqqət yetirmədən bir onu deyə bilirəm ki, dolu bir ömür yaşadım. Özümə, qohum-əqrabama, ailəmə, ətrafıma olsa-olsa ucalıq gətirə biləcək bir ömür. Bax budur və bu olub mənim altmış illik ömrümün görüntüləri...

***Mahmud ALLAHMANLI***
***Filologiya elmləri doktoru, professor***

## KİTABLAR

1. Aşıq Valehin sənət dünyası. Bakı, V. İ. Lenin adına ADPİ, 1991, 117 səh.

2. Şamanla ozan arasında. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1996, 152 səh.

3. Ozan, aşiq və aşıq. Bakı, Ağrıdağ, 1997, 160 səh.

4. Türk dastan yaradıcılığı. Bakı, Ağrıdağ, 1998, 144 səh.

5. Din, təriqət və aşıq. Bakı, Şur, 1999, 172 səh.

6. Ağlın və yaddaşın dedikləri. Bakı, Ağrıdağ, 2000, 140 səh.

7. Şaman, ozan və aşıq. Bakı, Ağıdağ, 2002, 332 səh

8. Haqdan yanan ocaq. Bakı, Adiloğlu, 2005, 271 səh.

9. Ədəbi düşüncələr. Bakı, Avropa, 2006, 306 səh.

10. Kırımtatar ədəbiyyatı (problemlər, mülahizələr). Bakı, ADPU, 2007, 146 səh.

11. Aşıq Ömərin yaradıcılığı. Bakı, ADPU, 2008, 195 səh.

12. Ədəbiyyat məsələləri. Bakı, ADPU, 2009,

214 səh.

13. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı, Elm və təhsil, 2011, 292 səh.

14. Dilə sevgi – yürda sevgi. Bakı, Təknur, 2011, 304 səh.

15. Folklorşünaslıq məsələləri. Bakı, Elm və təhsil, 2012, 284 səh.

16. Rasim Gənzəlinin bədii nəsri. Bakı, Elm və təhsil, 2012, 188 səh.

17. Çağdaş ədəbi proses. Bakı, ADPU, 2013, 100 səh.

18. Təxəllüsü Vaqif, nəzmi dürəfşan. Bakı, Ləman, 2017, 340 s.

19. Folklorşünas düşüncələri. Bakı, Ləman, 2018, 352 s.

20. Şirvan vurğunu, yollar yorğunu. Bakı, Elm və təhsil, 2018, 296 s. (Tariyel Qəni ilə birlikdə)

21. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı, Elm və təhsil, 2018, 220 s. (Məhərrəm Qasımlı ilə)

22. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Bakı, Nigar KM, 2019, 224 s. (Məhərrəm Qasımlı ilə)

23. İki ömrün dastanı. Bakı, ADPU, 2019, 134 s. (Məhəmməd Balayevlə)

24. Ozan-aşıq ensiklopediyası. 2 cilddə, I c., Bakı, Gənclik, 2019, 500 s. (M.Qasımlı, İ.Köçərli, K.Dadaşzadə ilə)

25. Ozan-aşıq ensiklopediyası. 2 cilddə, II c., Bakı, Gənclik, 2020, 432 s. (M.Qasımlı, İ.Köçərli, K.Dadaşzadə ilə)

## TƏRTİB ETDİYİ KİTABLAR

1. Ozan. Aşıq yaradıcılığının inkişaf yolları. Bakı, Çaşıoğlu, 2013, 788 s.

2. Aşıq ədəbiyyatı antologiyası. Aşıq poeziyası. Üç cilddə, I c., Bakı, 2017, 592 s. (M.Qasımlı ilə)

3. Aşıq ədəbiyyatı antologiyası. Qəhrəmanlıq dastanları. Üç cilddə, II c., Bakı, 2017, 512 s. (M.Qasımlı ilə)

4. Aşıq ədəbiyyatı antologiyası. Məhəbbət dastanları. Üç cilddə, III c., Bakı, 2017, 640 s. (M.Qasımlı ilə)

5. Aşıq gözəlləmələri. Bakı: Gənclik, 2020, 424 s.( M.Qasımlı ilə)

6. Ustad nəfəsli saz-söz ərməğanı. Bakı: Zərdabi Nəşr MMC, 2020, 400 s. (M.Qasımlı ilə)

7. Azərbaycan aşıq poeziyası (antologiya). Bakı: Şərq-Qərb, 2000, 734 s. (M.Qasımlı ilə)

## PROQRAMLAR

1. Qədim Azərbaycan ədəbiyyatı. Bakı, ADPU, 2001, 11 səh. (M. Həkimovla)

2. Aşıq yaradıcılığının inkişaf mərhələləri. Bakı, ADPU, 2009, 15 səh.

3. Azərbaycan ədəbiyyatı tarixi (filologiya fakültəsinin ingilis və fransız dili bölmələri üçün). Bakı, ADPU, 2013, 15 səh.

4. Türk dastan yaradıcılığı. Bakı, Vətən, 2014, 20 s. (Nazilə Abdullazadə ilə)

5. Aşıq ədəbiyyatı. Bakı, Vətən, 2016, 28 s.

6. Dastan yaradıcılığı. Bakı, Vətən, 2016, 25 s.

7. Ədəbiyyatşünaslığın tarixi və metodologiyası. Bakı, Vətən, 2016, 17 s.

8. Ədəbiyyatşünaslığın tədrisinin müasir problemləri. Bakı, Vətən, 2016, 16 s.

# JURNAL, MCMUƏ VƏ QƏZET MƏQALƏLƏRİ

***1986***

## *JURNAL VƏ MCMUƏ*

1. Sazımız, sözümüz. «Mədəni-maarif işi» jurnalı, 1986, № 1, səh. 39-40. (A. Əliyevlə)

## *QƏZET MƏQALƏLƏRİ*

2. Zakirin poetikası. «Qalibiyyət» qəzeti, 1986- ci il

***1987***

## *JURNAL VƏ MCMUƏ*

3. Aşıqlarımız, dastanlarımız. «Mədəni-maarif işi» jurnalı, 1987, № 4, səh. 42-44. (T. Məmmədovla)

## *QƏZET MƏQALƏLƏRİ*

4. Xalqın mənəvi sərvəti. «Qalibiyyət» qəzeti, 20 oktyabr, 1987-ci il

***1988***

***JURNAL VƏ MCMUƏ***

5. Aşıq Zərnigar. «Azərbaycan qadını» jurnalı, 1988, № 2, səh. 19

6. Aşıq Valehin yeni şerləri. «Ulduz» jurnalı, 1988, № 10, səh.80

***QƏZET MƏQALƏLƏRİ***

7. Qarabağ ədəbi mühiti və Aşıq Valeh. «Qalibiyyət» qəzeti, 20 sentyabr, 1988- ci il

8. Sənətə məhəbbət olduqda. «Qalibiyyət» qəzeti, 6 oktyabr, 1988- ci il

***1989***

***JURNAL VƏ MCMUƏ***

9. Qarabağ ədəbi mühiti və Aşıq Valeh. «Elm və həyat» jurnalı, 1989, № 4, səh. 17-18

***QƏZET MƏQALƏLƏRİ***

10. Aşıq Valeh. «Ədəbiyyat və incəsənət»

qəzeti, 3 fevral, 1989 - ci il

11. Aşıq Valehin yeni şerləri. «Qalibiyyət» qəzeti, 18 mart, 1989 - si il

***1990***

***JURNAL VƏ MCMUƏ***

12. Yeddi dastan. «Kitablar aləmində» jurnalı, 1990, № 2, səh. 38-39

13. Aşıq Valeh. «Pioner» jurnalı, 1990, № 2, səh. 21

14. Ustad Aşıq Valeh. «Azərbaycan» jurnalı, 1990, № 6, səh.153-154

15. İnamlarımız, etiqadlarımız. «Kitablar aləmində» jurnalı, 1990, № 4, səh. 28-30

***QƏZET MƏQALƏLƏRİ***

16. Dağlarda nəğmə dindi. «Azərbaycan gəncləri» qəzeti, 10 mart, 1990, (S. Osmanzadə)

17. Məhəbbətə xalq abidəsi. «Azərbaycan müəllimi» qəzeti, 27 aprel, 1990-cı il

18. Folklorşünaslıq problem laboratoriya. «Gənc müəllim» qəzeti, 22 may, 1990-cı il

19. Folklorşünaslıq problem laboratoriya.

“Azərbaycan müəllimi» qəzeti, 7 noyabr, 1990, (A. Səmədlə)

20. Maraqlı görüş. «Gənc müəllim» qəzeti, 3 dekabr, 1990-cı il

21. Sazın, sözün ritmi. «Qalibiyyət» qəzeti, 30 iyun,1990-cı il

***1991***

***JURNAL VƏ MCMUƏ***

22. XVIII əsr Qarabağ aşıq mühiti. Azərbaycan folklorşünaslığının aktual problemləri. BDU, 1991, səh. 56-57

23. Abdalgülablı Aşıq Valeh. «Qobustan» jurnalı, 1991, № 1, səh. 81-82

24. Dünyaya açılan qapılar. «Azərbaycan» jurnalı, 1991, № 7, səh. 185- 187

25. Miskin Vəli. «Mədəni- maarif işi» jurnalı, 1991, № 3-4, səh. 13-17. (Y. Babayevlə)

26. Miskin Vəli. «Ulduz» jurnalı, 1991, № 7, 95-96. (Y. Babayevlə)

***QƏZET MƏQALƏLƏRİ***

27. Miskin Vəli. «Azərbaycan gəncləri» qəzeti, 24 yanvar, 1991, (Y. Babayevlə)

28. Folklorumuzu toplayaq. «Şirvan» qəzeti, 13 iyul, 1991, (Q. Umudovla)

29. Folklorumuz və el müdriklərimiz. «Şirvan» qəzeti, 20 iyul, 1991, (Q. Umudovla)

30. Adətlərimiz, ənənələrimiz. «Azərbaycan müəllimi» qəzeti, 23 oktyabr, 1991-ci il

31. Saray mədəniyyəti, saray şeri. «Qala» qəzeti, 31 dekabr, 1991-ci il

32. Novruzla bağlı inamlar. «Fəryad» qəzeti, 19 mart, 1991-ci il

***1992***

***JURNAL VƏ MCMUƏ***

33. XI-XII əsrlər Azərbaycan milli mədəniyyəti və Nizami Gəncəvi. Məcmuə. Azərbaycanın qədim və orta əsr tarixi problemləri (Nizaminin 850 illiyinə həsr olunmuşdur). Bakı, 1992, 113-118

34. Qurbaniyə abidə. «Azərbaycan» jurnalı, 1992, № 9-10, səh. 184-185

35. Azərbaycan xalqının təsərrüfat həyatı ilə bağlı əski inam və etiqadlar. Məcmuə. Azərbaycanın qədim və orta əsr tarixi problemləri. (Nizaminin 850 illiyinə həsr olunmuşdur). Bakı, 1992, səh. 154-157

36. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 7 fevral, 1992, (V. Əyyubovla)

37. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 20 fevral, 1992, (V. Əyyubovla)

38. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 1992, № 6 (V. Əyyubovla)

39. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 1992, № 7 (V. Əyyubovla)

40. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 1992, № 8 (V. Əyyubovla)

41. Mən nəyəm. «Azərbaycanın səsi» qəzeti, 1992, № 9 (V. Əyyubovla)

42. Mənəvi sərvətimiz. «Azərbaycan müəllimi» qəzeti, 1 iyul 1992, (M. Həkimovla)

43. Şuşa bayatıları. «Sərbəst düşüncə» qəzeti, 30 sentyabr, 1992-ci il

44. S. Vurğun və xalq yaradıcılığı. «Sərbəst düşüncə» qəzeti, 7 oktyabr, 1992, (M. Qaraoğlu ilə)

45. Bayatı dolu ürək. «Novruz» qəzeti, 9 oktyabr 1992-ci il

46. İncə dərəsinə oxunmuş nəğmələr. «Sərbast düşüncə» qəzeti, 11 noyabr, 1992-ci il

47. Sənətkarın yaradıcılıq fərdiliyi. «Sərbəst düşüncə» qəzeti, 3 dekabr, 1992-ci il

48. Sadığam məskənim ay İncə-İncə. «Oğuz eli»» qəzeti, 30 avqust, 1992-ci il

49. Fəlakət, yoxsa. «Sərbəst düşüncə» qəzeti, 23 sentyabr, 1992-ci il

50. Şahbulaq qalası, Koroğlu qalası. «Sərbəst düşüncə» qəzeti, 23 sentyabr, 1992-ci il

51. Milli hərəkat: iqtidar və müxalifət. «Sərbəst düşüncə» qəzeti, 30 sentyabr, 1992-ci il

52. Bizə nə lazımdır? «Sərbəst düşüncə» qəzeti, 15 oktyabr, 1992-ci il

53. Mən faktlara inanıram. «Sərbəst düşüncə» qəzeti, 15 oktyabr, 1992-ci il

54. AXC-nin bir lideri var - o da Ə. Elçibəydir. «Sərbəst düşüncə» qəzeti, 30 oktyabr, 1992-ci il

55. Azərbaycanın müstəqilliyi türk dünyasının azadlığı deməkdir. «Sərbəst düşüncə» qəzeti, 4 noyabr, 1992-ci il

56. Demokratik proses və gənc ziyalılarımız. «Sərbəst düşüncə» qəzeti, 4 noyabr, 1992-ci il

57. Gürcüstanla münasibətlər oradakı soydaşlarımızın mənafeyinə uyğun qurulmalıdır. «Sərbəst düşüncə» qəzeti, 26 noyabr, 1992-ci il

58. Qafqaz xalqlarının öz müqəddəratını həll edəcəyi gün uzaqda deyil. «Sərbəst düşüncə» qəzeti, 26 noyabr, 1992-ci il

59. Qəbələnin ilk şəhidi. «Sərbəst düşüncə» qəzeti, 30 dekabr, 1992-ci il

60. Xalq öz igid oğulları ilə yaşayar. «Dəli Kür» qəzeti 5 oktyabr, 1992-ci il

61. Ölümdən o yana. «Sərbəst düşüncə» qəzeti, 26 noyabr, 1992-ci il

## *QƏZET MƏQALƏLƏRİ*

62. İlk kitabın sevinci. «Ziya» qəzeti, 7 may, 1993-cü il

63. Ağır illərin yaddaşı. Sərbəst düşüncə» qəzeti, 12-18 mart, 1993-cü il

***1994***

## *QƏZET MƏQALƏLƏRİ*

64. Xoşbəxt taleli şair. «Dəli Kür»»» qəzeti, 21 sentyabr, 1994-cü il

65. Türbə haqqı. «Dəli Kür» qəzeti 17 avqust, 1994-cü il

66. Qam-şaman ayinləri. «Dəli Kür» qəzeti,

19 oktyabr, 1994-cü il

67. Qarayazınamə. «Təhsil» qəzeti, 19 oktyabr, 1994-cü il

68. Şərəfli ömür. «Ziya» qəzeti, 27 dekabr, 1994, (R. Hüseynova ilə)

69. Qurbani haqqında bir daha. «Təhsil» qəzeti, 21 sentyabr, 1994-cü il

70. Xeyirxahlıq unudulmur. «Təhsil» qəzeti, 12 noyabr, 1994-cü il

***1995***

***JURNAL VƏ MCMUƏ***

71. Bilicilik süzgəcindən keçən inamlar. Məlahət Mövsümqızı. Yuxu yozumları. «Azərbaycan» nəş. 1995, səh. 6-7

***QƏZET MƏQALƏLƏRİ***

72. Sumqayıt: sərbəst zona problemi. «Müxalifət» qəzeti, 16 dekabr, 1995-ci il

73. Bayraq zəfər tanrısıdır. «Müxalifət» qəzeti, 30 dekabr, 1995-ci il

74. Ölən və öldürən polis. «Müxalifət» qəzeti, 6 sentyabr, 1995-ci il

75. Demokratiya asanlıqla əldə edilən siyasi istək deyil. «Müxalifət» qəzeti, 14 oktyabr, 1995-ci il

***1996***

***JURNAL VƏ MCMUƏ***

76. Redaktordan. Mürsəl Həkimov. Elat bayatıları. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1996, səh.303

***1998***

***JURNAL VƏ MCMUƏ***

77. Ozanın aşığa transformasiyasında islamın aparıcılığı. Dil məsələlərinə dair tematik toplu. N. Tusi ad. ADPU, 1998, № 1, səh. 35-39

78. «Kitabi-Dədə Qorqud» və Oğuz mədəniyyəti. Məcmuə. Filologiya məsələlərinə dair tematik toplu. N. Tusi ad. ADPU, 1998, № 1, səh. 161-166

79. Saya, aşıq eyniyyəti və onun mövcudluq ehtimalı. «Dil və ədəbiyyat» jurnalı, 1998, № 2, səh. 110-112

80. Ozan, dədə, aşıq problemi ətrafında düşüncələr. Məcmuə. Dil məsələlərinə dair tematik

toplu. N. Tusi ad. ADPU, 1998, № 2, səh. 47-57

81. Aşıq dastan yaradıcılığının təmərgüzləşmə və inkişaf istiqaməti. Məcmuə. Humanitar elmlər seriyası. N. Tusi ad. ADPU,1998, № 1, səh. 197-202

82. Saya, aşıq eyniyyəti. «Azərbaycan» jurnalı, 1998, № 8, səh. 171-172

***QƏZET MƏQALƏLƏRİ***

83. Qədim türklərdə inanclar. «Müxalifət» qəzeti, 25 avqust, 1998-ci il

84. Folklorda işıqla zülmətin mübarizəsi. «Müxalifət» qəzeti, 21 iyul, 1998-ci il

